AZƏRBAYCAN RESPUBLİKASI
XARİCİ İŞLƏR NAZİRLİYİ
KONSULLUQ İDARƏSİ

REPUBLIC OF AZERBAIJAN
MINISTRY OF FOREIGN AFFAIRS
CONSULAR DEPARTMENT

№ 4/15-5859/15/09
"12" 10 2009 il

Azərbaycan Respublikası,
Göyçay rayonu, Nizami küç., ev
69-da yaşayan Zemfira İsmayıla

Hörmətli Zemfira xanım,

Sizin Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə ünvanladığınız müraciətlə əlaqədar Almaniya Federativ Respublikasındakı Səfirliklərindən əldə etdiyimiz məlumatı sizə göndəririk.

Qoşma: 1 vərəq

Hörmətlə,

İdarə rəisinin müavini M.Nəcəfova

AZ1009, Bakı şəhəri, Ş.Qurbanov küç., 4
Tel.: +994 (12) 492 96 92 Faks: +994 (12) 492 69 03
Elektron poçt: secretariat@mfa.gov.az
İnternet səh.: www.mfa.gov.az

4 Sh. Qurbanov St., Baku, AZ1009
Tel.: +994 (12) 492 96 92 Fax: +994 (12) 492 69 03
E-mail: secretariat@mfa.gov.az
Web site: www.mfa.gov.az

Azərbaycan Respublikası XİN-dən daxil olmuş s/15-7646/156/09 saylı, 02 iyul 2009-cu il tarixli vətəndaş Zenfira İsmayılın oğlu İsmayıl Rüstəm barədə Azərbaycan Respublikasının Prezidentinə ünvanlanmış ərizə ilə əlaqədar məktuba tərəfimizdən baxılmışdır.

Bildiririk ki, vətəndaş Zenfira İsmayılın ərizəsində qeyd edilən İsmayıl Rüstəm Azərbaycan Respublikasının AFR-dəki Səfirliyində konsulluq qeydiyyatındadır və Səfirlik tərəfindən onun hüquqlarının müdafiəsi məqsədilə mütəmadi olaraq müvafiq tədbirlər həyata keçirilir.

Qeyd edilməlidir ki, vətəndaş İsmayıl Rüstəmin hüquqlarının müdafiəsi və bununla əlaqədar müvafiq tədbirlərin görülməsinə dair Azərbaycan Respublikası İnsan haqları üzrə müvəkkil E.Suleymanova, habelə vətəndaşın özü tərəfindən Səfirliyə müraciətlər olunmuşdur.

Məsələ ilə əlaqədar olaraq vətəndaş İsmayıl Rüstəm bir neçə dəfə Səfirliyə dəvət edilmiş və onun hüquqlarının bərpa olunması, o cümlədən Almaniyada yaşamasının qanuniləşdirilməsi və bundan irəli gələn digər hüquqların həyata keçirilməsi üçün tərəfimizdən müvafiq tədbirlər görülmüşdür.

Bu tədbirlər sırasında vətəndaş konsulluq uçotuna götürülmüş, onun istəyinə əsasən soyadı dəyişdirilmiş (Səfirlik tərəfindən bu barədə müvafiq şəhadətnamə verilmişdir), yeni ümumvətəndaş pasportu rəsmiləşdirilmiş, onun AFR-də olmasının qanuniləşdirilməsi məqsədilə AFR Xaricilərlə İş üzrə İdarəsi ilə müvafiq danışıqlar aparılmış və digər tədbirlər görülmüşdür.

Hal-hazırda da, Səfirliyin konsulluq şöbəsinin əməkdaşları vətəndaş İ.Rüstəmlə mütəmadi olaraq əlaqə saxlayır, onun anasının ərizəsində qaldırılan problemlərin həll olunması üçün Almaniya Federativ Respublikası və beynəlxalq qanunvericiliyinin tələbləri çərçivəsində müvafiq tədbirlər görür.